# **TƏHSİL SAHƏSİNDƏ TƏRƏFDAŞLAR**

## Azərbaycanda təhsil imkanlarının genişləndirilməsinə yönəlmiş təşəbbüslərə dair anlaşma memorandumunun imzalanması mərasimində BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrellin çıxışı, 19 iyun 2014-cü il

Möhtərəm qonaqlar, xanımlar və cənablar,

Bu axşam burada keçirilən tədbir hamımız üçün xoş və nikbin perspektivlər vəd edən bir hadisədir. Bu, BP və onun tərəfdaşlarının Azərbaycan hökuməti və xalqı ilə olan əlaqələrinin daha da dərinləşməsi və genişləndirilməsi istiqamətində atılmış daha bir mühüm addım – hər birimizin qürur duya biləcəyi bir addımdır.

Həmçinin Azərbaycan hökumətinin bu cür iki möhtərəm nümayəndəsi – təhsil naziri cənab Mikayıl Cabbarov və fövqəladə hallar naziri cənab Kəmaləddin Heydərov ilə bir araya gəlmək mənim üçün şərəfdir.

Və əlbəttə ki, BP və onun Azərbaycandakı tərəfdaşları Birləşmiş Millətlər Təşkilatının çox nüfuzlu bir qurumu olan və ötən 67 il ərzində bütün dünyada məhdud imkanlı uşaqlarla bağlı gördüyü mükəmməl işləri ilə tanınan UNİCEF ilə bu anlaşma memorandumunu imzalamaqdan qürur və məmnunluq duyur.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, biz hamımız son illərdə Azərbaycanda iqtisadi və sosial sahədə böyük inkişaf müşahidə edirik. Bildiyim qədərilə, təhsil sahəsinə xərclənən vəsait, məsələn, 2007-ci ildən bu vaxtadək demək olar ki 120 faiz artıb. Bu, böyük bir nailiyyətdir.

Ölkənin təhsil infrastrukturunun – binaların, avadanlıqların, müəllimlərin kənd yerlərində inkişafına, habelə sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinə xeyli investisiya yatırılıb.

Biz də, son iyirmi ildə Azərbaycanın neft-qaz layihələrində iştirak edən şirkətlər olaraq bu inkişafa bacardığımız qədər dəstək olmağa calışmışıq.

Fəaliyyətə başladığı andan etibarən bizim icma inkişaf proqramımızdakı təşəbbüslərin bir çoxu təhsil sahəsini əhatə etməklə məktəb binalarının bərpasına, kitab və kompüterlərin təmin olunmasına, məktəbəqədər uşaq bağçalarının dəstəklənməsinə, müəllimləri təkmilləşdirmə və peşə təlimlərinin təmin olunmasına, istifadə yollarının bərpa edilməsinə yardım edib. Bu siyahını daha da uzatmaq olar.

Nəticədə, Azərbaycanda yüzdən artıq kənd icması bu təşəbbüslərdən bəhrələnib. Bizim Azərbaycanda davamlı inkişaf layihələrinə yatırdığımız təxminən 60 milyon dollar həcmində olan investisiyanın 30 milyon dolları boru kəmərlərimiz boyunca yerləşən icmaların inkişafına sərf edilib. Onun faydaları əhəmiyyətli və uzunmüddətli olub və bizə nələrə nail oluna biləcəyimizi göstərib. Və biz bu dəstəyi davam etdirmək istəyirik.

Ümumilikdə bizim Azərbaycanda ərsəyə gətirdiyimiz və hazırda idarə etdiyimiz dünya səviyyəli layihələr ölkənin sürətli iqtisadi inkişafına əhəmiyyətli töhfə verib və biz burada əsas biznes fəaliyyətimizdəki məhsuldar tərəfdaşlığın uzun illər davam edəcəyinə ümidvarıq. Bununla yanaşı, biz təhsil, mədəniyyət, idman və digər inkişaf layihələrindəki tərəfdaşlıqlarımızı davam etdirəcəyik.

Biz uşaqlara, gənclərə və təhsilə sərmayə yatırmaqla ölkənin gələcəyinə sərmayə qoyduğumuza inanırıq. Ötən həftə biz innovativ "Oyunlar Akademiyası" layihəsinə sponsorluq edəcəyimizi elan etdik. Bu təşəbbüsün yüzlərlə Azərbaycan gəncinin yeni bacarıqlara və biliklərə yiyələnərək ölkənin beynəlxalq tədbirlər həyata keçirmə potensialına töhfə verməsi üçün çox gözəl bir imkan olacağı gözlənilir. Bu təşəbbüs növbəti il Bakıda keçiriləcək ən böyük idman tədbiri olan və bizim də rəsmi tərəfdaşı olduğumuz 2015-ci il Avropa Oyunları üçün ölkənin hazırlıq işləri çərçivəsində həyata keçirilən bir təşəbbüsdür. Biz Azərbaycana bu böyük beynəlxalq səviyyəli tədbirdə dəstək olmaqdan qürur duyuruq.

Bu gün də biz buna oxşar əlamətdar bir hadisə ilə əlaqədar toplaşmışıq. Baxmayaraq ki, bu gün UNİCEF-lə imzalanan anlaşma memorandumu və UNİCEF, Təhsil Nazirliyi və Fövqəladə Hallar Nazirliyi arasında razılaşdırılmış Fəaliyyət Planı bizim Bakı Avropa Oyunları ilə tərəfdaşlığımızdan fərqli bir aspekti əhatə edir, mahiyyət etibarilə onlar eyni məqsədə - artıma, inkişafa və təhsilə xidmət edir.

Bugünkü anlaşma memorandumunun hədəfi Azərbaycanın təhsil sisteminin ölkə üzrə təkmilləşdirilməsi üçün "nümunəvi modelləri"n tətbiqini əhatə edir.

Buna necə nail olunacaq?
Deməli, biz modellərin tətbiqinə BTC və CQBK boru kəmərləri boyunca yerləşən səkkiz rayondan – Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Samux, Goranboy, Şəmkir və Tovuz rayonlarından başlayacağıq.

Bu, üçillik bir layihədir və biz inanırıq ki, hədəfə nail olduğumuz təqdirdə müvafiq regionlarda yeni və effektiv icma əsaslı məktəb modelinin yaradılmasına və beləliklə də, Azərbaycandakı gənclər üçün imkanların artırılmasına yardım etmiş olacağıq. Bu, iddialı bir məqsəddir. Bizim üçün uğur bu yeni modellərin real həyatda özünü doğrultduğunu və bütün Azərbaycanda davamlı təməl üzərində tətbiq olunduğunu görmək olacaq.

Diqqətinizə görə təşəkkür edirəm!